**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ PREZİDENTİ**

# SƏRƏNCAM

№ 696

Bakı şəhəri 30 dekabr 2016-cı il

Təbiətşünaslığın tarixinə dair oçerklərin hazırlanması haqqında

Təbiət elmlərinin tarixinin araşdırılması, bu elmlərin Azərbaycanda təşəkkülünün və inkişaf mərhələlərinin öyrənilməsi, habelə yetişməkdə olan gənc nəsildə elmi dünyagörüşün formalaşdırılması məqsədilə:

1. AMEA-nın Elm Tarixi İnstitutuna (tarix üzrə elmlər doktoru Məryəm Seyidbəyli) tapşırılsın ki, AMEA-nın Fizika İnstitutu, Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanası, Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu, Aşqarlar Kimyası İnstitutu, Polimer Materialları İnstitutu, Coğrafiya İnstitutu, Botanika İnstitutu və digər müvafiq institutlarla, habelə AMEA Rəyasət Heyəti aparatının Azərbaycanda elmi irsin toplanması və sistemləşdirilməsi mərkəzi ilə birlikdə AMEA-nın prezidenti, akademik Akif Əlizadənin redaktəsi ilə təbiətşünaslığın tarixinə dair beş buraxılışdan ibarət aşağıdakı oçerklər hazırlansın:
   - 1.1. Astronomiyanın tarixinə dair oçerk;
   - 1.2. Fizikanın yaxın keçmişinə dair oçerk;
   - 1.3. Kimyanın tarixinə dair oçerk;
   - 1.4. Coğrafiyanın tarixinə dair oçerk;
   - 1.5. Biologiyanın tarixinə dair oçerk.
2. Oçerklərin hazırlanması ilə bağlı işlərin gedişatı və ümumiləşdirilmiş hesabatlar rübdə bir dəfə AMEA-nın Elm Tarixi İnstitutunun Elmi şurasında müzakirə edilsin.

3. AMEA-nın “Elm” Nəşriyyatına (Hafiz Abıyev) tapşırılsın ki, təbiətşünaslığın tarixinə dair oçerklər nəfis şəkildə nəşr edilsin.
4. Sərəncamın icrasına nəzarət AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil idarəsinə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə